


Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 237 (21.647)

13 dekabr 2016-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 13 il keçir.

Azərbaycan dövlətçiliyinin xilaskarı, türk dünyasının böyük oğlu Heydər Əliyevin vəfatından ötən illər ərzində görkəmli şəxsiyyətin, əbədiyaşar Prezidentimizin məzarı xalqımızın müqəddəs ziyarətgahına, gənclərin and yerinə çevrilib.

Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəliblər.

Prezident İlham Əliyev ulu öndərin məzarı önünə əklil qoyub.

Azərbaycanın Dövlət Himni səsləndirilib.

Dövlətimizin başçısı İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoyublar.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edilib, məzarları üstünə gül dəstələri düzülüb.



# Naxçıvanda ümummilli liderimiz Heydər Əliyevin xatirəsi yad edilmişdir





Dekabrın 12-də Naxçıvan şəhərində ümummilli liderimiz Heydər Əliyevin əziz xatirəsi dərin ehtiramla yad edilmişdir. Minlərlə insan Naxçıvan şəhərinin Heydər Əliyev prospektində ulu öndərimizin əzəmətlə ucalan abidəsini ziyarət etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ümummilli liderimiz Heydər Əliyevin abidəsi önünə tər gül dəstəsi qoymuş, xalqımızın böyük oğlunun xatirəsini ehtiramla yad etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin, nazirlik, komitə, şirkət və baş idarələrin, müəssisə və təşkilatların, ali məktəblərin kollektivləri, hərbi hissələrin, ictimaiyyətin nümayəndələri ulu öndərin abidəsini ziyarət edərək dahi şəxsiyyətin əziz xatirəsinə sonsuz məhəbbətlərini bildirmişlər.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin siyasi fəaliyyətinin hər iki dövrü xalqa xidmət nümunəsidir. O, Azərbaycanın müqəddəratının həll olunduğu təhlükəli və mürəkkəb məqamlarda xalqın köməyinə çatmışdır. Ümummilli lider Azərbaycanı istər Sovet imperiyasının məngənəsindən, istərsə də müstəqilliyin ilk illərindəki xaos və anarxiyadan çıxararaq yeni inkişaf mərhələsinə yüksəltmişdir. Məhz bu səbəbdən ulu öndər Azərbaycan xalqının və dövlətinin milli mənafeyini hər şeydən uca tutan, onu ümumi məqsədlər naminə səfərbər etməyi bacaran bir rəhbər kimi hələ sağlığında xalqımızın qəlbində əbədi yaşamaq hüququ qazanmışdır. Həyatını xalqına və ölkəsinə həsr etdiyini bəyan edən dahi rəhbər deyirdi: ***"Mən ya müstəqil Azərbaycan dövlətini quracağam, ya da bu yolda şəhid olacağam".***

Azərbaycanı müstəqil dövlət quruculuğuna aparan yol, əslində, 1969-cu ildən – ümummilli lider Heydər Əliyevin ölkəmizdə birinci dəfə hakimiyyətə gəlişi ilə qoyulmuşdur. 1969-1982-ci illərdə ulu öndər Azərbaycanı böyük bir imperiyanın tərkibində milli varlığını itirməkdən qorudu, iqtisadiyyatı dirçəltdi. Ölkəmizdə böyük istehsal müəssisələri, zavodlar, fabriklər tikildi, təhsil, səhiyyə, mədəniyyət ocaqları fəaliyyətə başladı, dərin köklərə və qədim mədəniyyətə malik olan xalqın tarixi yaddaşı bərpa edildi və bütün bunların məntiqi nəticəsi olaraq gələcək müstəqilliyin əsasları yaradıldı.

Alman filosofu Hegel yazırdı ki, "sürətlə iflasa yaxınlaşan xalqların taleyi yalnız dahilər tərəfindən xilas oluna bilər". Vətənin ağır bəlalardan xilasını özünün tarixi missiyası kimi qəbul edən ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan naminə fəaliyyətinin 1990-cı ildən sonrakı mərhələsi şərəfli xilaskarlıq və quruculuq missiyasıdır. Bu missiyanın öz başlanğıcını götürdüyü yer isə Azərbaycanın Naxçıvan Muxtar Respublikasıdır.

Ulu öndər Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi 1990-1993-cü illərdə Azərbaycan xalqının azadlıq və müstəqilliyi üçün çalışmış, müstəqil dövlətçilik ənənələrinin formalaşdırılması istiqamətində tarixi addımlar atmışdır. Dahi şəxsiyyətin uzaqgörən siyasəti sayəsində muxtar respublikanın adından "sovet, sosialist" sözləri çıxarılmış, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı kimi qəbul edilmiş, qədim Naxçıvan torpağı erməni təcavüzündən qorunmuşdur. Bir sözlə, dahi rəhbərin o çətin dövrdə Naxçıvanda həyata keçirdiyi tədbirlər müstəqil dövlətçiliyimizin bünövrəsini qoymuşdur.

Şəxsiyyətlərin ucalığını təsdiqləyən əsas amillərdən biri də onların xalqı və dövləti ümumi zamanın hökmünə qarşı qərar qəbul etmələridir. Ulu öndər ölkəmizə rəhbərliyinin birinci dövründə xalqın milli varlığını bərpa etməklə, gələcək müstəqillik üçün iqtisadi əsaslar yaratmaqla, 1990-cı ildə imperiyanın mərkəzində kəskin bəyanatla çıxış edərək Bakıda baş vermiş faciəni törədənlərin məsuliyyətə cəlb olunmasını tələb etməklə və Naxçıvanda müstəqil dövlətçiliyimizin əsaslarını yaratmaqla bütün varlığı ilə doğma Azərbaycana və xalqına bağlı olduğunu bir daha təsdiqləmişdir.

Böyük şəxsiyyətlər heç bir zamana və məkana sığmırlar. Tarix böyük şəxsiyyətlərin mənalı ömür yoludur. Bu mənada ulu öndər Heydər Əliyevin ömür yolu Azərbaycan xalqının şanlı tarixidir. Çünki dahi rəhbər Azərbaycanı qorumaq üçün yaşadı, Azərbaycanı yaşatmaq üçün qurub-yaratdı. Xalqın ulu öndər Heydər Əliyevə olan böyük inamı və təkidli tələbi ilə 1993-cü il iyunun 15-də dahi rəhbər ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıtdı. Bu qayıdış Azərbaycan xalqının və dövlətçiliyinin Milli Qurtuluş Günü kimi tarixə düşdü. Ulu öndərin 1993-2003-cü illərdə ölkəmizə rəhbərlik etdiyi dövr minilliklər boyu davam edən dövlətçilik tariximizin şanlı səhifəsidir. Bu mərhələ Azərbaycanda müstəqilliyin əbədi və dönməz xarakter alması, dövlətçiliyin möhkəmləndirilməsi, iqtisadi inkişaf üçün möhkəm təməlin yaradılması, milli-mənəvi yüksəliş dövrüdür.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov demişdir: ***"Dahi Heydər Əliyev ona görə ümummilli liderdir ki, xalqının ağır günündə onun səsini eşitdi, Azərbaycanın xilası naminə, xalqın tələbi ilə yenidən siyasi hakimiyyətə qayıtdı. Bu qayıdış Azərbaycanın yeni tarixinin yaradıcısı kimi Heydər Əliyevin adını xalqımızın xilaskarı simvoluna çevirdi. Xalq - Heydər Əliyev, Heydər Əliyev - xalq birliyinin sarsılmazlığı dövlətimizin müstəqilliyinə əbədi təminat verdi. Hələ sağlığında möhtərəm Heydər Əliyevin xalqın ümummilli lideri adını qazanmasının kökündə də məhz bu amil – xalqın öz liderinə dərin inamı və məhəbbəti, liderin isə mənsub olduğu xalqın yolunda hər cür fədakarlığa hazır olması və xalqa olan sonsuz məhəbbəti dayanırdı. Ümummilli liderimizin bu fədakarlığı sayəsində 1993-cü ildə Azərbaycanın əldən getməkdə olan dövlət müstəqilliyi qorunub saxlandı".***

Bu gün hər bir azərbaycanlı fəxrlə deyir ki, ümummilli lider Heydər Əliyevin şah əsəri olan, sürətli sosial-iqtisadi inkişaf dinamikasına malik və ən əsası ulu öndərin siyasi xəttini yeni dövrün tələblərinə uyğun davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev kimi qüdrətli lideri olan müstəqil Azərbaycanda yaşayır. Bu gün ölkəmizdə həyata keçirilən siyasi xətt – Heydər Əliyev yolu Azərbaycanı daha böyük zəfərlərə qovuşdurur, ölkəmiz Prezident İlham Əliyevin rəhbərliyi altında bu yolla inamla irəliləyir.

Bu gün Naxçıvan Muxtar Respublikası da əsl inkişaf və tərəqqi dövrünü yaşayır. Bu tərəqqiyə ümummilli liderimizin müəllifi olduğu inkişaf strategiyasının uğurla davam etdirilməsi və Heydər Əliyev siyasi xəttinə sədaqət nəticəsində nail olunmuşdur. Son illər muxtar respublikada quruculuq işləri geniş vüsət almış, dinamik iqtisadi inkişaf əldə olunmuş, infrastruktur yenilənmiş, sosial proqramlar qəbul edilərək icra olunmuş, enerji və ərzaq təhlükəsizliyi təmin olunmuş, etibarlı müdafiə sistemi yaradılmışdır.

Ümummilli lider Heydər Əliyev Azərbaycan xalqı durduqca onunla yaşayacaqdır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Nə qədər Azərbaycan var, Heydər Əliyev də olacaqdır. Biz – ulu öndərin davamçıları onun yolu ilə gedəcəyik, Azərbaycanı gücləndirəcəyik, müstəqilliyimizi qoruyacağıq".***

Həmin gün muxtar respublikanın bütün rayon mərkəzlərində də ümummilli liderimizin əziz xatirəsi dərin ehtiramla yad edilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Ulu öndər Heydər Əliyevin əziz xatirəsi muxtar respublikamızın bütün rayonlarında ehtiramla anılmışdır

## Şərur rayonu



***Şərur rayonu Naxçıvan Muxtar Respublikasının ən böyük bölgələrindəndir. Bu qədim oğuz-türk yurdu barlı-bərəkətli torpaqları, gözəl və abad yurd yerləri, əsrarəngiz təbiət abidələri ilə göz oxşayır. Ümummilli lider Heydər Əliyevin Azərbaycanda rəhbərliyə başlaması Şərur rayonunun da dirçəlməsinə səbəb olub, bölgədə genişmiqyaslı tikinti-quruculuq, abadlıq tədbirlərinin həyata keçirilməsi geniş vüsət alıb. Ulu öndərin bilavasitə rəhbərliyi ilə Arpaçayın üzərində su anbarı tikilib. Burada yaradılmış su ehtiyatı rayonun on minlərlə hektar əkinəyararlı sahələrinin suvarılmasına imkan verib.***

Məhz ümummilli lider Heydər Əliyevin böyük qayğısı sayəsində ötən əsrin 70-ci illərindən başlayaraq Şərur rayonunda kənd təsərrüfatı inkişaf etdirilib, yeni meyvə və üzüm bağları salınıb, hektarlarla ərazidə müxtəlif məhsullar yetişdirilib. Geniş aqrar sənaye komplekslərinin yaradıldığı Şərur rayonu həmin illərdə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında həmişə ön sıralarda olub. Buna görə də rayon sakinləri ümummilli liderimizin rəhbərliyi ilə həyata keçirilən tədbirləri bu gün minnətdarlıq hissi ilə xatırlayırlar. Ulu öndər bu bölgəyə yüksək qiymət verərək deyib: ***"Mən arzu edirəm ki, siz gələcəkdə öz işlərinizi daha da yaxşılaşdırasınız. Şərur rayonunun imkanları böyükdür. Burada yaxşı torpaqlar var, çox fədakar insanlar, sizlər varsınız. Arzu edirəm ki, buranı daha da abadlaşdırasınız, gözəlləşdirəsiniz və iqtisadiyyatınızı daha da inkişaf etdirəsiniz".***

Ötən əsrin 90-cı illərində muxtar respublikanın ağır blokada şəraitində yaşaması, digər bölgələrimiz kimi, Şərur rayonuna da öz mənfi təsirini göstərib. Uzun illər boyu minbir əziyyətlə yaradılan müəssisələr iflic vəziyyətinə düşərək fəaliyyətini dayandırıb. Kənd təsərrüfatı sahəsində ciddi problemlər özünü göstərib. Lakin dahi şəxsiyyət Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi dövrdə, eləcə də xalqın təkidli tələbi ilə ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra muxtar respublikanın hər bir rayonu kimi, Şərura da böyük diqqət və qayğı göstərilib.

Ötən dövr ərzində Şərur rayonu daha da inkişaf edərək yeni mərhələyə qədəm qoyub. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramlarının uğurlu icrası nəticəsində Şərur rayonunda bütün sahələrin inkişafına nail olunub. Muxtar respublikada həyata keçirilən quruculuq tədbirləri çərçivəsində bölgədə mühüm infrastruktur layihələri həyata keçirilib. Rayonda fəaliyyət göstərən təhsil, mədəniyyət, səhiyyə, eləcə də digər dövlət orqanları üçün hərtərəfli şərait yaradılıb, yol infrastrukturu yenilənib, onlarla kənd və xidmət mərkəzləri tikilib, əhalinin enerji təhlükəsizliyi təmin edilib.

Bu gün Şərur rayonunda aparılan genişmiqyaslı tikinti-quruculuq, abadlıq işləri bu qədim diyarın simasını daha da gözəlləşdirib. Quruculuq işləri cari ildə də davam etdirilir. 2016-cı ildə Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey üçün yeni tədris korpusu, Arbatan kəndində yeni sosial obyektlər istifadəyə verilib. Eyni zamanda Şərur şəhər 2 nömrəli tam orta məktəbin, Çəmənli kəndində məktəb binasının, kənd və xidmət mərkəzlərinin, eləcə də Arpaçay kəndindəki kənd və xidmət mərkəzlərinin tikintisi davam etdirilib. Həyata keçirilən tədbirlər əhalinin gün-güzəranını, yaşayış səviyyəsini xeyli yaxşılaşdırır, onlarda Vətənə, torpağa olan sevgini, eləcə də el-obaya olan bağlılığı daha da artırır. Tarixən qoçaq, zəhmətkeş, əməksevər olan şərurlular yaradılan şəraitdən bəhrələnərək muxtar respublikamızın sosial-iqtisadi inkişafında yaxından iştirak edirlər.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi kursuna həmişə sədaqətli olan şərurlular bu gün ölkə başçısı cənab İlham Əliyevin ətrafında sıx birləşir, onun yeritdiyi daxili və xarici siyasəti birmənalı şəkildə bəyənir və müdafiə edirlər. Şərurluların fəal vətəndaş mövqeyi onları daha yaxşı işləməyə sövq edir, muxtar respublikamızın hərtərəfli inkişafına verdikləri sanballı töhfələrdə bir daha özünü göstərir.

Dekabrın 12-də Şərur şəhərinin Heydər Əliyev prospektində ulu öndərimizin əzəmətlə ucalan abidəsi minlərlə insanın ziyarətgahına çevrildi. Dahi rəhbərin anım günündə rayon sakinləri ümummilli lider Heydər Əliyevin əziz xatirəsini böyük ehtiramla yad etdilər.

## Babək rayonu

***Babək rayonu ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasına birinci rəhbərliyi dövründə, 1978-ci il oktyabrın 23-də yaradılıb. Uzaqgörən siyasətçi Heydər Əliyevin o illərdə ölkənin dağ və sərhəd rayonlarının daha da möhkəmləndirilməsi siyasətinin məntiqi nəticəsi kimi yeni rayonun təşkili ideyası, rayona mərkəzi hakimiyyətin iradəsinin əksinə olaraq Babək adının verilməsi ulu öndərimizin qətiyyətinin, daim Azərbaycançılıq mövqeyində dayanmasının, milli yaddaşın bərpası istiqamətində həyata keçirdiyi taleyüklü tədbirlərin nəticəsi idi.***



Bu gün 74 minə yaxın əhalisi olan Babək rayonu 35 kənd və bir qəsəbədən ibarətdir. Rayon mərkəzi Babək qəsəbəsi, ən ucqar dağ və sərhəd yaşayış məntəqələri sürətli inkişaf yolundadır. Bölgənin Nehrəm, Qahab, Kərimbəyli, Şıxmahmud kimi böyük kəndləri ilə yanaşı, ucqar yaşayış məntəqələri olan Göynükdə, Nəhəcirdə, Naxışnərgizdə, Yuxarı Buzqovda, Gərməçataqda da müasir infrastruktur yaradılıb.

Ulu öndər Heydər Əliyevin siyasətinin uğurla davam etdirilməsi sayəsində Babək rayonunda sənaye məhsulunun həcmi xeyli artıb, fəaliyyətdə olan müxtəlif istehsal müəssisələrinin sayı 60-a çatıb. Rayon ərazisində daş məhsulları, kərpic, beton məmulatları və mineral su istehsalı müəssisələri ilə yanaşı, kiçik sahibkarlıq obyektləri də fəaliyyət göstərir.

Ötən dövrdə rayonda xeyli kənd və xidmət mərkəzləri istifadəyə verilib, təhsilə qayğı sayəsində gözoxşayan məktəb binaları tikilib və ya əsaslı təmir olunaraq yenidən qurulub. Bu illər ərzində Babəkdə mədəniyyətin inkişafı istiqamətində də mühüm tədbirlər həyata keçirilib, bölgənin mədəniyyət müəssisələrinin fəaliyyətlərinin yeni binalarda davam etdirilməsinə şərait yaradılıb.

Abad yurd yolundan bəlli olar, – deyiblər. Babək rayonu da bu gün rahat yol-nəqliyyat infrastrukturuna malikdir. Son illərdə burada Hacıvar-Vayxır-Sirab və Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolları inşa olunub, görülmüş kompleks quruculuq tədbirləri nəticəsində yeni yollar çəkilib, kəndlərdən rayon mərkəzinə və Naxçıvan şəhərinə gediş-gəliş xeyli asanlaşıb. Cari ildə də rayonda tikinti-quruculuq işləri davam etdirilib. 31 min nəfərdən çox əhalinin yaşadığı 7 yaşayış məntəqəsini əhatə edən Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun 9,6 kilometrlik ikinci hissəsi istifadəyə verilib, Gərməçataq kənd avtomobil yolu yenidən qurulub.

Xəlilli kəndində kənd və xidmət mərkəzləri tikilib, məktəb binası əsaslı təmir olunaraq istifadəyə verilib. Məzrədə kənd və xidmət mərkəzləri, tam orta məktəb binası quruculuq işlərinin davamı kimi kənd sakinlərini sevindirib. Həmçinin Hacıvarda kənd və xidmət mərkəzləri, Badaşqan kəndində isə xidmət mərkəzi tikilərək istifadəyə verilib.Yarımca kəndinə də quruculuq işlərindən böyük pay düşüb. Bu yaşayış məntəqəsində kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası tikilib, kənd tam orta məktəbi isə əsaslı təmir olunub. Kəndin 4700 metr məsafəlik yoluna asfalt salınıb.

Rayonun suvarma şəbəkəsinin yenilənməsi də daim diqqətdə saxlanılır. Cari ildə Kültəpə və Kərimbəyli kəndlərində torpaqların suvarılmasını təmin etmək, su itkisinin və şoranlaşmanın qarşısını almaq məqsədilə Heydər Əliyev Su Anbarından başlayan Vayxır sol sahil kanalından 3060 metr yeni boru xətti çəkilib. Suyun əraziyə itkisiz paylanması üçün 1272 metr beton kanal tikilib, üzərində 16 suburaxıcı qapılar qoyulub. Yeni suvarma sisteminin qurulması nəticəsində Kültəpə və Kərimbəyli kəndlərinin 565 hektar torpaq sahəsində suvarma imkanları yaxşılaşdırılıb ki, bunun da 217 hektarı yeni əkin dövriyyəsinə qatılmış torpaqlardır.

Dekabrın 12-də ümummilli lider Heydər Əliyevin əziz xatirəsi muxtar respublikamızın hər yerində olduğu kimi, Babək rayonunda da böyük ehtiramla anılıb. Həmin gün rayon mərkəzinin Heydər Əliyev prospektində ulu öndərimizin əzəmətlə ucalan abidəsi minlərlə insanın ziyarətgahına çevrilib. Rayon sakinləri müstəqil Azərbaycanın qurucusunun xatirəsini dərin ehtiramla yad ediblər.

* * *

## Ordubad rayonu

***Xalqımızın ümummilli lideri Heydər Əliyevin "Azərbaycanın incisi" adlandırdığı Ordubad rayonunda dahi rəhbərin qurub-yaratdıqlarını sadalamaqla bitməz. Rayonun hərtərəfli inkişaf etdirilməsi ümummilli liderin Azərbaycana rəhbərliyinin hər iki dövründə diqqətdə saxlanılıb.***

Qeyd etmək lazımdır ki, ötən əsrin 80-ci illərinin sonlarında bu yurd yerimizin də insanları böyük çətinliklərlə üzləşmişdilər. Ancaq dahi rəhbərin muxtar respublikaya gəlişindən sonra digər bölgələrimiz kimi, Ordubad da sürətli inkişaf yoluna qədəm qoydu. Sonrakı dövrdə rayonda vəziyyət müsbətə doğru dəyişildi, bütün sahələrdə böyük problemlərin olduğu bölgədə həyata keçirilən təxirəsalınmaz tədbirlər nəticəsində ictimai-siyasi sabitlik, əmin-amanlıq bərpa edildi, iqtisadi böhranın aradan qaldırılması üçün ilkin zəruri addımlar atıldı. Rayonda müxtəlif sahələrin inkişafına əhalinin bütün təbəqələri cəlb edildi, məşğulluq probleminin aradan qaldırılması istiqamətində təxirəsalınmaz tədbirlər həyata keçirildi, azad sahibkarlıq üçün geniş imkanlar yaradıldı, dağıdılmış aqrar sahə bərpa edildi.

Son illərdə Ordubad rayonunda əldə olunan nailiyyətlər onu deməyə əsas verir ki, ulu öndərimizin Naxçıvanın inkişafı naminə başladığı işlər uğurla davam etdirilir. Elə buna görə də həyata keçirilən tədbirlərin parlaq nəticələrini rayonun hər bir yaşayış məntəqəsində görmək olar. Muxtar respublikanın sosial-iqtisadi inkişafı istiqamətində həyata keçirilən tədbirlər bütün bölgələr kimi, Ordubadın da sosial-iqtisadi inkişafına öz töhfələrini verib, rayon iqtisadiyyatının daha da güclənməsi əhalinin gün-güzəranını xeyli yaxşılaşdırıb. Bölgənin ən ucqar dağ və sərhəd kəndlərinin belə, siması dəyişib, yaşayış məntəqələrində tikinti-quruculuq işləri geniş vüsət alıb.

Cari ildə də Ordubad rayonunda tikinti-quruculuq işləri davam etdirilib, yeni bağlar, yaşıllıq sahələri salınaraq bölgənin abadlığına, gözəlliyinə xidmət göstərilib. Belə ki, 2016-cı ildə Ordubad şəhərində Ordubad dəmiryol sərnişin vağzalı və Ordubad Yol Sahəsinin inzibati binalarında tikinti işləri davam etdirilib. Kapital Bankın Ordubad rayon şöbəsi, Ordubad Şəhər Sürücülük və Texniki Peşə Məktəbi üçün bina yenidən qurulub. Hazırda şəhərin Mirzə Fətəli Axundov küçəsində 36 mənzilli yaşayış binasında təmir işləri aparılır, həmçinin su, kanalizasiya xətlərinin çəkilişi davam etdirilir.





Yaşayış məntəqələrində aparılan tikinti-quruculuq işlərindən Baş Dizə kəndinə də pay düşüb. Cari ildə bu yaşayış məntəqəsində kənd və xidmət mərkəzləri tikilib, 156 yerlik məktəb binası inşa edilib.

Görülən işlərin nəticəsidir ki, bu gün Ordubad tarixiliyini saxlamaqla ən abad və müasir bir rayona çevrilib. Bütün bunlar Heydər Əliyev yolunun uğurla davam etdirilməsinin nəticəsidir. Ölkəmizin gələcəyi üçün gördüyü işlərə, insanların rifahı naminə misilsiz xidmətlərinə, bugünkü əmin-amanlığa, firavanlığa görə xalqımızın böyük oğlu rayon sakinləri tərəfindən həmişə minnətdarlıqla xatırlanır.

Dahi rəhbərin xatirəsinə sonsuz ehtiram dünən bir daha ifadə olunub. Ulu öndərin anım günündə rayon sakinləri görkəmli dövlət xadimi Heydər Əliyevin rayon mərkəzindəki abidəsi önünə gələrək ona sevgi və ehtiramlarını bildirib, ən böyük azərbaycanlının əziz xatirəsini bir daha yad ediblər.

Ardı 3-cü səhifədə

## Culfa rayonu



***Muxtar respublikamızın bütün bölgələri kimi, Culfa rayonunun sakinləri də ümummilli liderin anım günündə Onun əziz xatirəsini böyük ehtiramla yad ediblər.***

Bu gün rayonun hansı səmtinə üz tutsan, orada dahi rəhbərin ideyalarının uğurla davam etdirildiyinin şahidi olarsan. Culfa rayonu istər tarixi-mədəni, istərsə də strateji baxımdan regionun mühüm əhəmiyyət kəsb edən ərazilərindən biridir. Ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu hər iki dövrdə digər rayonlar kimi, Culfa rayonunun da sosial, iqtisadi, mədəni yüksəlişinə daim qayğı ilə yanaşıb.

Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyasının muxtar respublikamızda uğurlu davamının nəticəsidir ki, digər bölgələrdə olduğu kimi, bu bölgədə də kompleks quruculuq tədbirləri həyata keçirilib, son illər rayonda hər bir yaşayış məntəqəsinə yeni görkəm gətirən, müasir memarlıq üslubu ilə gözoxşayan ümumtəhsil və uşaq musiqi məktəbləri, uşaq bağçaları, məktəbdənkənar müəssisələr, səhiyyə obyektləri, mədəniyyət müəssisələri, kənd mərkəzləri üçün yeni binalar istifadəyə verilib, obyektlər müasir avadanlıqlarla təchiz edilib. Rayonda həyata keçirilən tədbirlər gələcəyimiz olan uşaqların yaxşı təhsil almasına, sağlam böyüməsinə, rayon sakinlərinin rahat yaşamasına və asudə vaxtlarının səmərəli keçirilməsinə, kəndlə şəhər arasındakı fərqin aradan qaldırılmasına zəmin yaradıb.

Rayon mərkəzi burada aparılan abadlıq-quruculuq tədbirləri nəticəsində gözəl bir məkana çevrilib. Bir-birindən yaraşıqlı inzibati və yaşayış binaları, parklar, abad prospekt və küçələr, həm şəhərdaxili, həm də rayonun kəndləri arasında salınmış asfalt yollar sakinlərin istifadəsinə verilib.

Əhalisinin 70 faizdən çoxu kəndlərdə yaşayan muxtar respublikamızın digər bölgələrində olduğu kimi, Culfa rayonunda da aqrar bölmənin inkişafı mühüm əhəmiyyətli sahə kimi diqqət mərkəzində saxlanılıb, daxili bazarın keyfiyyətli yerli kənd təsərrüfatı məhsulları ilə təmin olunmasına əlverişli şərait yaradılıb. Həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər öz bəhrəsini verib, əhalinin məşğulluğu təmin olunub, maddi rifah halı daha da yaxşılaşıb.

Təbii ki, görülən işlər rayon sakinləri tərəfindən minnətdarlıqla qarşılanır, xalqımızın böyük oğlu, dahi şəxsiyyət Heydər Əliyevin əziz xatirəsi dərin ehtiramla yad olunur. Böyük rəhbərə olan ehtiramın ifadəsidir ki, culfalılar ulu öndərin anım günündə bir daha dahi şəxsiyyətin əziz xatirəsini anıb, Onun Culfa Rayon İcra Hakimiyyətinin qarşısında ucaldılmış büstünü ziyarət ediblər.

## Kəngərli rayonu

***Kəngərli rayonunun yaradılması və bugünkü inkişafı da Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin uğurlu siyasi xəttinin ifadəsidir. Bu rayonun yaradılması, yeni idarə, müəssisə və təşkilatların fəaliyyətə başlaması mindən çox iş yerinin açılmasına, bölgə iqtisadiyyatının güclənməsinə, ailələrin məskunlaşmasına şərait yaradıb. Tarixi bir adı özündə yaşadan Kəngərli rayonu qısa müddət ərzində muxtar respublikanın digər rayonlarının inkişaf səviyyəsinə çatıb.***



Muxtar respublikamızda dahi şəxsiyyətin yolunun böyük ehtiramla davam etdirilməsi nəticəsində bütün bölgələrimizdə, o cümlədən Kəngərli rayonunda geniş tikinti-quruculuq işləri həyata keçirilib. İnsana qayğını özündə təcəssüm etdirən bu inkişaf rayonun bütün kəndlərini əhatə edib, müasir məktəb binaları, səhiyyə və mədəniyyət ocaqları tikilib istifadəyə verilib, yollar abadlaşdırılıb, sənaye müəssisələri yaradılıb.

Qürurla deyə bilərik ki, bu gün Kəngərli muxtar respublikamızın, həmçinin Azərbaycanın bütün yaşayış məntəqələri abadlaşdırılan ilk rayonudur. Bölgənin abadlaşan sonuncu yaşayış məntəqəsi Yurdçu kəndi olub. Bu il yanvarın 14-də Yurdçu kəndində orta məktəb, kənd və xidmət mərkəzləri üçün binalar, o cümlədən Yurdçu kənd yolu istifadəyə verilib. Quruculuq işləri bununla yekunlaşmayıb. Akademik Zərifə xanım Əliyeva adına Şahtaxtı kənd tam orta məktəbinin binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilib, rayonun Böyükdüz və Xok kəndlərini əhatə edən qapalı suvarma şəbəkəsi işə salınıb.

Rayon mərkəzi Qıvraq qəsəbəsində hər il yeni binaların istifadəyə verilməsi qəsəbənin siması xeyli dəyişib. Burada yenidənqurma işləri aparıldıqdan sonra istifadəyə verilən Xanlıqlar-Püsyan-Qıvraq avtomobil yolu, müasir üslubda inşa edilən Təhsil Şöbəsi, Uşaq-gənclər şahmat məktəbi, Elektrik Şəbəkəsi üçün binalar və "Qıvraq" elektrik yarımstansiyası, Ticarət-İaşə və Bazar Kompleksi gözəlliyi ilə göz oxşayır. Bu il Qıvraq qəsəbə tam orta məktəbində cari təmir işləri həyata keçirilib, hazırda uşaq bağçasının inşası aparılır.

Kəngərli rayonunda keçirilən iməciliklərdə yaşıllıq zolaqları ilə yanaşı, hər il yeni meyvə bağları da salınır. Bu il 50 hektar sahədə püstə, 14 hektar sahədə isə tut bağı salınıb. Rayonun bütün yaşıllıqlarını əhatə edən ərazilərində nümunəvi meliorativ və aqrotexniki tədbirlər görülür.

Əldə olunan nailiyyətlər təkcə iqtisadi sahələri əhatə etmir. Mədəniyyət, təhsil, səhiyyə kimi humanitar sahələr də öz inkişafının yeni mərhələsindədir. Kəngərli rayonunun sakinləri bütün bu uğurlara görə ulu öndərimiz Heydər Əliyevə minnətdar olduqlarını dərindən dərk edirlər.

Ulu öndər Heydər Əliyevin əziz xatirəsi dekabrın 12-də Kəngərli rayonunda da böyük hörmət və ehtiramla anılıb. Dahi şəxsiyyətin anım günü ilə əlaqədar olaraq keçirilən mərasimdə rayon sakinləri ümummilli liderin əziz xatirəsini yad etməklə Azərbaycanın xilaskarına və Onun nurlu yoluna olan hörmət və ehtiramlarını bir daha nümayiş etdiriblər.

Həmin gün xalqımızın böyük oğlunun rayon mərkəzində əzəmətlə ucaldılan abidəsi yüzlərlə insanın axın etdiyi məkana çevrilib.

* * *

## Şahbuz rayonu



***12 dekabr ulu öndərimiz Heydər Əliyevin əbədiyyətə qovuşduğu gün kimi bütün azərbaycanlılar tərəfindən ehtiramla anılır, müstəqil Azərbaycanın qurucusu olan dahi şəxsiyyətin xalqımız qarşısındakı xidmətləri bir daha ümumxalq sevgisi ilə xatırlanır.***

Bu gün qüdrətli Azərbaycanın dünya arenasında söz sahibi olan bir dövlətə çevrilməsi məhz ümummilli liderin yaradıcısı olduğu dövlətçilik yolunun təntənəsidir. Ölkəmizin hər yerində insanların azad, xoşbəxt bir vətəndaş kimi yaşayıb fəaliyyət göstərməsi ulu öndərimizin yolunun uğurla davam etdirilməsinin nəticəsində mümkün olub.

Şahbuz rayonu da ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf və tərəqqi yolu ilə inamla irəliləməkdədir. Rayon iqtisadiyyatı müstəqillik illərində inkişaf etdirilib, əhalinin yaşayış səviyyəsi qat-qat yüksəlib. Müasir Şahbuzun bütün yaşayış məntəqələri artıq abadlığa qovuşub, rahat yol və nəqliyyat sistemi, etibarlı enerji və rabitə şəbəkəsi yaradılıb. Rayonun ən ucqar dağ və sərhəd yaşayış məntəqələrinin belə, siması tanınmaz dərəcədə dəyişilib. Sürətli inkişaf dövrü keçərək ölkəmizin nümunəvi bölgələrindən birinə çevrilən bu qədim yurd yerində təbiət gözəllikləri ilə insan əli möcüzələri həmahənglik təşkil edir. Bütün bunlar şahbuzluların həyat tərzini sürətlə dəyişdirib, torpağa bağlılıqlarını artırıb. Ötən illərdə rayonda yaradılmış çox sayda sosial obyektlərin sırasına bu il yeniləri də əlavə olunub. Quruculuq tədbirləri hazırda davam etdirilməkdədir. Bu il rayonda Daylaqlı kənd və xidmət mərkəzləri tikilib, kənd tam orta məktəbinin binası istifadəyə verilib, kənddaxili yollar yenidən qurulub.

Abadlıq tədbirləri rayonun Kiçikoba kəndini də müasirliyə qovuşdurub. Kiçikoba-Daylaqlı kənd avtomobil yolu yenidən qurulub, Kiçikobada kənd və xidmət mərkəzləri tikilib sakinlərin istifadəsinə verilib. Hazırda rayonun yaşayış məntəqələrindən olan Kolanı kəndində tam orta məktəb üçün tikilən binada son tamamlama işləri aparılır, Şahbuz şəhərində rayon Elektrik Şəbəkəsi üçün inzibati binanın tikintisi davam etdirilir.

Ölkəmizin artan iqtisadi potensialından bəhrələnib öz firavan həyatını qurmuş şahbuzlular ümummilli lider Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətlərini, dahi şəxsiyyətin ölkəmizin, muxtar respublikamızın çətin dövrlərindəki xilaskarlıq missiyasını həmişə minnətdarlıqla xatırlayırlar. Ulu öndərimizin müəyyənləşdirdiyi sosial-iqtisadi strategiya, quruculuq xətti bu gün ölkəmizin hər yerində olduğu kimi, Şahbuzu da inkişaf və tərəqqiyə qovuşdurub.

Dünən rayon ictimaiyyətinin nümayəndələri görkəmli dövlət xadimi Heydər Əliyevin Şahbuz Rayon İcra Hakimiyyəti önündə ucaldılmış büstünü ziyarət edərək dahi şəxsiyyətin əziz xatirəsinə ehtiramlarını bildiriblər.

* * *

## Sədərək rayonu

***Naxçıvan Muxtar Respublikasının sərhəd bölgəsi olan Sədərək rayonunun yaradılması, inkişafı və tərəqqisi ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Sədərək rayon kimi muxtar respublikanın inzibati ərazi bölgüsünə 1990-cı il avqustun 28-də daxil edilib. Rayon mərkəzi olan Heydərabad qəsəbəsinin əsası hələ ümummilli liderin Azərbaycana birinci rəhbərliyi dövründə qoyulub.***



Ötən əsrin 90-cı illərində Sədərək mənfur ermənilər tərəfindən mütəmadi olaraq hücumlara məruz qalıb. Naxçıvanın qala qapısı sayılan bu bölgədə 1990-1993-cü illərdə ağır döyüşlər olub. Həmin illərdə buradakı vəziyyətlə bilavasitə tanış olan ümummilli lider Heydər Əliyev bu hücumların qarşısının alınması üçün böyük xidmətlər göstərib, dünya ölkələrinin diqqətini burada baş verən hadisələrə yönəldib. Dahi şəxsiyyətin böyük nüfuzu, uzaqgörən siyasəti nəticəsində düşmən hücumlarının qarşısı qətiyyətlə alınıb, rayonun müdafiəsi üçün mühüm addımlar atılıb.

Ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə rayonun sosial-iqtisadi inkişafının təmin edilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilib. 1 qəsəbə və 2 kənd yaşayış məntəqəsindən ibarət olan Sədərək rayonu bu tədbirlər hesabına hərtərəfli tərəqqiyə qovuşub. Rayonda 1782 şagird yerlik 4 ümumtəhsil məktəbi, 1 uşaq musiqi məktəbi, 2 uşaq bağçası, 3 səhiyyə müəssisəsi, 4 mədəniyyət, 2 idman obyekti, 2 kənd mərkəzi tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib. Rayon mərkəzi Heydərabad qəsəbəsinin siması büsbütün dəyişib, yeni park və küçələr salınıb, yaşıllıqlar yaradılıb, rayonun bütün daxili yolları abadlaşdırılıb.

Təbii ki, sədərəklilər bu gün ulu öndərimizin Sədərək rayonunun yaradılması, Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsində xidmətlərini dərin hörmət və ehtiramla anırlar. Bu böyük sevgi və ehtiramı rayon ictimaiyyəti dünən dahi rəhbər Heydər Əliyevin Heydərabad qəsəbəsində əzəmətlə ucalan abidəsini ziyarət etməklə bir daha göstərib.

**Xəbərlər şöbəsi**

# Təbrizdə ulu öndər Heydər Əliyevin xatirəsi yad edilmişdir

Dekabrın 7-də Azərbaycan Respublikasının Təbrizdəki Baş Konsulluğunda xalqımızın ümummilli lideri Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş anım mərasimi keçirilmişdir.

Mərasimdə ulu öndərin xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, ruhuna dualar oxunmuşdur.

Azərbaycan Respublikasının Təbrizdəki Baş konsulu Əliyənnağı Hüseynov tədbirdə çıxış edərək demişdir ki, ulu öndər Heydər Əliyevin ömür yolu Azərbaycan tarixində mühüm mərhələ təşkil edir. Dahi rəhbər Sovet İttifaqı dövründə Azərbaycanda milli ruhun bərpası, milli kadr hazırlığı və iqtisadiyyatın dirçəldilməsi istiqamətində ardıcıl tədbirlər görmüş, gələcək dövlət müstəqilliyi üçün zəmin hazırlamışdır. Ötən əsrin 90-cı illərinin əvvəllərində isə ulu öndərin Naxçıvanda yaşayıb fəaliyyət göstərməsi muxtar respublikanı işğaldan qorumuş, dövlətçiliyimizin əsasları yaradılmışdır. Xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdan ümummilli lider itirilməkdə olan müstəqilliyimizi qoruyub saxlamış, torpaqlarımızın işğalının qarşısını almış, qüdrətli Azərbaycan dövlətini yaratmışdır. Bu gün ulu öndər Heydər Əliyev ideyalarının həyata



keçirilməsi Azərbaycanı sürətli sosial-iqtisadi inkişafa və sabitliyə qovuşdurmuşdur.

Baş konsul demişdir ki, ümummilli lider Heydər Əliyev Azərbaycan-İran əlaqələrinin əsasını qoymuşdur. Bu gün qonşu ölkələr arasındakı münasibətlər uğurla inkişaf edir.

Sonra mərasimdə ehsan süfrəsi açılmışdır.

Anım mərasimində İran İslam Respublikası Şərqi Azərbaycan Vilayətinin Baş Mədəniyyət və İslami İrşad İdarəsinin baş direktoru Məhəmməd Məhəmmədpur, İranın Xarici İşlər Nazirliyinin Qərbi Azərbaycan Vilayətindəki nümayəndəliyinin sədri Əhməd Müntəzəmi, Şərqi Azərbaycan Vilayətinin dövlət rəsmiləri, Türkiyənin Təbrizdəki Baş konsulu, eləcə də ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

**“Şərq qapısı”**

# Muxtar respublikanın ümumtəhsil məktəbləri ilə Heydər Əliyev Muzeyi arasında interaktiv dərs təşkil olunub

***Dekabrın 12-də muxtar respublikanın 213 ümumtəhsil məktəbi ilə Heydər Əliyev Muzeyi arasında interaktiv dərs keçirilib.***

“Əbədiyaşar lider” mövzusunda keçilən açıq dərsdə muzeyin direktoru Ramil Orucəliyev əvvəlcə muzey barədə şagirdlərə ətraflı məlumat verib. Bildirilib ki, Heydər Əliyev Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1999-cu il fevralın 18-də imzaladığı Sərəncam əsasında yaradılıb. Muzey həmin il may ayının 10-dan fəaliyyətə başlayıb. Bu gün Azərbaycan Respublikasında xalqımızın böyük oğlu Heydər Əliyevin adını daşıyan 50-dən çox muzey və mərkəz fəaliyyət göstərir. Bunlar içərisində Naxçıvandakı Heydər Əliyev Muzeyi xüsusi yer tutur. Muzey ümummilli liderin sağlığında yaradılıb. Muzeydə ulu öndərin həyatının müxtəlif dövrlərinə həsr olunmuş eksponatlar, eləcə də dahi şəxsiyyətin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə qəbul etdiyi müxtəlif tarixi sənədlər toplanıb.

Qeyd olunub ki, Heydər Əliyev Muzeyi ekspozisiya zalından və kitabxanadan, muzey fondundan ibarətdir. Burada kitabxana yaradılıb, ümummilli liderimiz haqqında çəkilmiş filmləri nümayiş etdirmək üçün lazımi avadanlıqlar, kompüter dəstləri quraşdırılıb. Həmçinin muzeyin internet saytı mövcuddur.

“Muzey fondunda ulu öndərin həyat və fəaliyyətini özündə əks etdirən 4 min 629 ədəd eksponat toplanıb”, – deyən Ramil Orucəliyev bildirib ki, bu eksponatlar ümummilli liderimiz Heydər Əliyevin ictimai-siyasi fəaliyyətini, keçdiyi şərəfli həyat yolunu özündə əks etdirən kitab, qəzet və jurnallardan, qəbul etdiyi tarixi qərar və sərəncamlardan, imzalanmış protokol və müqavilələrdən, məktub və teleqramlardan, istifadə etdiyi xatirə əşyalarından, ulu öndərin şərəfinə toxunmuş xalçalardan, çəkilmiş portretlərdən, tarixi fotolardan və sənədli filmlərdən ibarətdir.

Dahi şəxsiyyətin mənalı həyatı və zəngin siyasi fəaliyyəti barədə danışan Heydər Əliyev Muzeyinin direktoru bildirib ki, ulu öndərimiz Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il 14 iyul tarixdə keçirilən plenumunda Azərbaycan KP MK-nın birinci katibi seçilib. 1976-cı ilin martında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilən görkəmli dövlət xadimi Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilib. SSRİ kimi nəhəng dövlətin rəhbərlərindən biri olan ulu öndərimiz 1982-1987-ci illərdə daim Azərbaycan haqqında düşünərək ölkəmizin gələcəyi üçün mühüm tədbirlər həyata keçirib. 1990-cı il yanvarın 20-də sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində bəyanatla çıxış edərək Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb edib.



Açıq dərsdə vurğulanıb ki, Azərbaycanın xilası ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizin ağır, çətin dövründə, 1990-cı il iyul ayının 20-də Moskvadan Bakıya, iki gün sonra isə doğma Naxçıvana qayıdan ulu öndərimiz buradan bütün Azərbaycanın qurtuluş mübarizəsinə rəhbərlik edib. 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasında dahi şəxsiyyətin rəhbərliyi ilə tarixi qərarlar qəbul edilib, muxtar respublikanın erməni təcavüzündən xilas olunması, böhranlı vəziyyətdən çıxarılması üçün ardıcıl tədbirlər görülüb. Üçrəngli bayrağımızın ilk dəfə olaraq 1990-cı il noyabrın 17-də ulu öndərin sədrliyi ilə keçirilən Naxçıvan parlamentinin iclasında qaldırılması, Naxçıvan Muxtar Respublikasının adından “sovet, sosialist” sözlərinin çıxarılması, SSRİ-nin qorunub saxlanması ilə bağlı keçirilən referendumda Naxçıvan Muxtar Respublikasının iştirak etməməsi, burada aqrar islahatların keçirilməsi, Azərbaycanda ilk milli ordu quruculuğuna Naxçıvan Muxtar Respublikasından başlanılması müstəqil dövlətçilik yolunda atılan ilk addımlar idi. Məhz həmin sessiyada Naxçıvan Muxtar Respublikası Ali dövlət hakimiyyəti orqanı Ali Məclis adlandırılıb, “Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında” qərar qəbul edilib. Həmin qərarlar, sessiyaya gətirilən üçrəngli bayraq, 3 sentyabr 1991-ci ildə ulu öndərimiz Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi haqqında qərar bu gün muzeydə nümayiş etdirilir.



Naxçıvan şəhərindəki 2 nömrəli tam orta məktəb

Ramil Orucəliyev bildirib ki, 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində Yeni Azərbaycan Partiyası təsis edilib və ulu öndərimiz partiyanın sədri seçilib. 1993-cü ildə müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı görkəmli dövlət xadimi Heydər Əliyevin hakimiyyətə qayıdışı tələbi ilə ayağa qalxıb. Ulu öndər Heydər Əliyev həmin il iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçilib. Məhz bu tarixdən başlayaraq Azərbaycanda dövlət quruculuğu prosesinə start verilib, ölkənin parçalanmasının, yox olmasının qarşısı alınıb. Buna görə də 15 iyun Azərbaycan xalqının tarixinə Milli Qurtuluş Günü kimi daxil olub.



Babək rayon Məzrə kənd tam orta məktəbi



Kəngərli rayon Qıvraq qəsəbə tam orta məktəbi

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində dahi şəxsiyyət Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilib.

Diqqətə çatdırılıb ki, işgüzarlığı, çoxşaxəli fəaliyyəti ilə seçilən ulu öndər Heydər Əliyev bir sıra beynəlxalq mükafatlara, müxtəlif ölkələrin universitetlərinin fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülüb. O, 1979-cu və 1983-cü illərdə iki dəfə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülüb, bir çox xarici dövlətlərin orden və medalları ilə təltif olunub.



Sədərək kənd 1 nömrəli tam orta məktəb

Vurğulanıb ki, Azərbaycanın 40 ildən artıq bir dövrü ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycanın müstəqil dövlət kimi bölgədə və dünyada layiqli yerini tutması məhz görkəmli dövlət xadimi, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə əvəzedilməz işlər görmüş Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir. XX əsr Azərbaycan tarixinin fenomen şəxsiyyəti olan ulu öndər xalqımızı can atdığı müstəqillik idealına qovuşdurub, mütərəqqi tarixi ənənə əsasında yeni dövlətçilik konsepsiyasını irəli sürüb. Buna görə də O, Azərbaycan xalqının və dövlətinin milli mənafeyini hər şeydən uca tutan, onu ümumi məqsədlər naminə səfərbər etməyi bacaran bir rəhbər kimi hələ sağlığında xalqımızın qəlbində əbədi yaşamaq hüququ qazanıb.

**Səbuhi HƏSƏNOV**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 939